dığını, 17 noyabr 1919-cu il tarixli teleqrafla Çürüksulu Mahmud paşanın nəzərinə çatdırmışdır.

"etat tampon" [état tampon]: bufer dövlət (fransızca)

səh. 356. "Mustafa Kamal paşa deyir ki:": Mustafa Kamal paşanın buradakı bəyanatı, "Azərbaycan" qəzetinin 13 noyabr 1919-cu il tarixli 321-ci nömrəsində də eynilə dərc edilmişdi.

"ittihadçı... ittihadçılıq": Türkiyədə 1913-cü ildə hakimiyyətə gələn İttihad və Tərəqqi partiyası və onun tərəfdarlığı.

**Papa müməssili-ruhanisinin vürudu**

səh. 361. "monsenor": Katolik kilsəsinin ali mənsəbli ruhanilərinin titulu.

"liturgiya": Xristianlığın əsas kilsə ibadətlərindən biri.

**Bakı xəbərləri**

səh. 363. "Filma": Bakıda fəaliyyət göstərmiş prokat şirkəti; 1914-cü ildə səhmdar cəmiyyətinə çevrilmişdi.

**Firqələr və cəmiyyətlər**

səh. 365. "İsmayıl Həsən qızı": qəzetdə belədir.

"3-cü Paralel": Bakıda, indiki Əbilov küçəsi.

**Ermənistanda**

səh. 366. "müdafiəsiz (?) əhali üzərinə": qəzetdə belədir.

**Teatro və musiqi**

səh. 366. "Səşənbə günü noyabrın 18-i ərbəin ilə Peyğəmbər vəfatı (bist həştüm) arasında olduğuna görə": "ərbəin" (hərfən 40-cı) – İmam Hüseyn və tərəfdarlarının şəhid edildikləri Kərbəla hadisəsinin qırxıncı günü, bu gün hicri təqvimdə 20 səfər kimi sabitlənmişdir; "bist həştüm" (hərfən: 28-ci) – Peyğəmbərin vəfatı şiə qaynaqlarına görə hicri təqvimlə 28 səfər günüdür. 18 noyabr (1919-cu il) isə hicri təqvimlə 24 səfər 1338-ci ilə, yəni "ərbəin" ilə "bist həştüm"ün arasına düşür.





**Çərşənbə axşamı, 18 noyabr 1919-cu il, nömrə 324**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 24 səfərül-müzəffər sənə 1338. 18 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mehdi və Məhəmmədəli Zeynalovlar və Məhəmmədkərim Məhəmmədov kamali-yas və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına, birincilərin atası və üçüncünün sevgili qayınatası Hacı Məhəmmədbağır Zeynalovun noyabrın 16-sında vəfat etdiyini xəbər verirlər. Mərhumun pəsməzarı [yas məclisi] İçərişəhərdə 37 nömrəli öz evində 2 gün davam edəcəkdir.

*14058*

## SİRK "MODERN"

### Mübarizənin son günləri

Səşənbə günü noyabrın 18-ndə 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Kalişeviç – Muznik; 2-nci: Gənc Əli – Staroşvili; 3-ncü: Yermak – Oleynikov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Sabah türk pəhləvanı Gənc Əlinin görülməyən benefisi olacaqdır.

*14056*

## ELAN

Azərbaycan Dəmiryolunun İdarəsi bununla elan edir ki, "Büro perevozki"-nin qərardadı mövcibincə [qərardadına əsasən], hər gün 3 nömrəli qatara balıq və balıq məkulatından [məhsullarından] ötrü bir vaqon bağlanacaq bu vaqona mallar Bakı şəhər istasyonunda 150 puda qədər və bu miqdarda da Bakı birinci istasyonunda qəbul olunur.

*T-345*

## SİÇANLARI MƏHV ETMƏKDƏN ÖTRÜ

İnsana, ev heyvanlarına və quşlara zərəri olmayan, siçan tifi dəvası varımızdır. Hər şüşə üstündə tövsiyə də verilir. Qolberq qardaşlarının ximik-bakterioloq laboratoriyasına müraciət etməli. Vorontsovski küçə 14, telefon nömrələri 28-64 və 23-83.

*19057*

**MALİYYƏ NƏZARƏTİ TƏRƏFİNDƏN**

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi [Dövlət Əmanət Kassaları və Kiçik Kredit İdarəsi] bununla elan edir ki, həmin oktyabr ayının 11-də Parlaman tərəfindən təsdiq olunmuş Azərbaycan Dövləti Əmanət Sandıqlarının nizamnaməsi mövcibincə, dekabr ayının 1-dən həmin 1919-cu ildən aşağıdakı adlanan 52 post-teleqraf müəssisələrində Azərbaycan post və teleqraf əmanət sandıqları (kassa) açılır.

Bakı: 1) Bakı Mərkəzi Post və Teleqraf Kontorasında; 2) Birinci şəhər şöbəsində (Vrangelski küçə); 3) İkinci şəhər şöbəsində (Yuxarı Priyutski küçə); 4) Dəmiryol şöbəsində; 5) Ağ şəhərdə (Belı-qorod); 6) Qara şəhərdə (Çornı-qorod); 7) Bibiheybətdə; 8) Balaxanıda; 9) Suraxanıda; 10) Hacıqabul istasyonunda; 11) Kürdəmir istasyonunda; 12) Sığırlı istasyonunda; 13) Xaçmaz istasyonunda; 14) Yalama istasyonunda.

Gəncə: 15) Gəncə Poçt-Teleqraf kontorasında; 16) Gəncə istasyonunda; 17) Yelenendorf koloniyasında; 18) Yevlax istasyonunda.

Şuşa: 19) Şuşa Post-Teleqraf kontorasında; 20) Xankəndidə.

Ağdaş: 21. Ağdaş Posta və Teleqraf kontorasında; 22) Xaldan kəndində; 23) Ləki istasyonunda.

Göyçay: 24) Göyçay Posta kontorasında; 25) Ucar istasyonunda.

Quba: 26) Quba Post-Teleqraf kontorasında; 27) Qusarda.

Qazax: 28) Qazax Post-Teleqraf kontorasında; 29) Ağstafa istasyonunda;

Zaqatal: 30) Zaqatal Post-Teleqraf kontorasında; 31) Qax kəndində; 32) Balakən kəndində.

Nuxu: 33) Nuxa Post-Teleqraf kontorasında; 34) Şəhər şöbəsində – şəhərin yuxarı hissəsində; 35) Vartaşen kəndində; 36) Pənci kəndində; 37) Qutqaşen kəndində.

Qalaqayın (Petropavlovka): 38) Qalaqayın Post-Teleqraf kontorasında; 39) Qaradonlu kəndində.

Salyan: 40) Salyan Post-Teleqraf kontorasında; 41) Boji promısel kəndində; 42) Züd-Ostov Qoltuq kəndində.

Şamaxı: 43) Şamaxı Post-Teleqraf kontorasında.

Ağdam: 44) Ağdam Post-Teleqraf kontorasında; 45) Bərdə kəndində; 46) Tərtər kəndində.

Lənkəran: 47) Lənkəran Post-Teleqraf kontorasında; 48) Prişib kəndində; 49) Astarada; 50) Biləsuvarda.

Qaryagino: 51) Qaryagino Post-Teleqraf kontorasında; 52) Cəbrayılda.

Azərbaycan Dövləti İqtisad Sandıqlarına qoyulan pullar dövlətin bütün varidatı ilə təmin edilir, hər bir vaxt təhdidatsız [məhdudiyyətsiz] sahiblərinə qaytarılır.

Qoyulan pullara ildə 3,6 faiz hesab olunur.

*Maliyyə naziri:*
*Ə[li]a[ğa] Həsənov*
*Azərbaycan Dövləti*
*Əmanət Sandıqları*
*və Xırda Etibar İdarəsi müdiri:*
*N[əsir] Tağıyev*
*T-346*





**QİSMİ RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Bakı müstəhkəm dairəsinin hərbi general-qubernatorunun məcburi qərardadı**

*15 noyabr 1919, şəhri-Bakı*

Hökumət idarələrinin və hökumət idarələrində xidmət edən zatların [şəxslərin] yerləşdirilməsi üçün Bakı şəhərində odaların kifayətsizliyindən və bu xüsusda ehtikar ilə [möhtəkirliklə] mübarizədə bulunmaq məqsədilə zeyldə məstur [aşağıda yazılmış] qərarların verilməsini lazım bildim:

1) Ev sahiblərindən, oda sahiblərindən və ya onların məsul müdirlərindən heç bir kimsənin boş və ya bir para səbəblərdən naşi [ötrü] boşanılan oda və evləri qeyrilərinə verməyə ixtiyarları olmadığı kimi, bütün boş və boşanılacaq oda və ev xüsusunda, həcz [müsadirə] edilmiş ev və odalar istisna edilməyərək, olduqları polis uçastkasına məktubən [yazılı surətdə] bildirməlidirlər. Həmçinin Bakı şəhəri vətəndaşlarından heç bir kimsə mənim icazəm olmadan ev tutmağa və ya təbdil etmək [dəyişdirmək] və həmçinin ev və ya oda sahibləri ilə etilafa [razılığa] girməyə ixtiyarları yoxdur. Bu barədə olan hər bir etilaf və ya başqaları etibardan saqit [etibarsız] hesab ediləcəklərdir.

Bu qərardadı xələldar edənlər [pozanlar] məhkum ediləcəklərdir: ev sahibləri, oda sahibləri və yainki məsul müdirləri və həmçinin oda kirayə edənlər bilatəxir [dərhal] üç ay müddətinə həbsə alınacaq və tənbeh müddəti itmamından sonra Bakı dairəsindən təbid ediləcəkdir [uzaqlaşdırılacaqdır]. Hərgah böylələri Azərbaycan əhalisi olmaz isə Azərbaycandan çıxarılacaqlardır.

2) Cənab Bakı qubernatoru təhtisədarətində [başçılığı altında] oda təqsim edən [bölüşdürən] beynəlidarə [idarələr arası] komissiyasının ləğv edildiyi üçün həcz [müsadirə] işləri, boş və boşanılan evlərin hesabını saxlamaq və təqsim üçün idarə cənbində [nəzdində] xüsusi bir oda şöbəsi təşkil edilsin (Birjevoy və Krasnovodski küçə).

3) Bakı qradonaçalniki təcili surətdə müqərrər edilmiş [qərarlaşdırılmış] formada bütün boş mülk və odalar xüsusunda mənə məlumat verməlidir. Bu da uçastka pristavlarından böylə məlumatları bilatəxir tələb etməlidir.

Böyləliklə hesaba alınan oda və evlər möhürlənməli və içlərində olan əşya və əmval [mallar] siyahı edilməlidir.

4) Bundan sonra bir para səbəblərdən naşi bəzi əşxasın [şəxslərin] getməsi münasibətilə bütün boş və boşanılan ev və oda, həcz edilmiş oda və evlərlə bərabər, bu xüsusda qradonaçalnik müqərrər formada mənə məlumat pişnihad [təqdim] etməli və bu oda və evlər möhürlənməli və hesaba alınmalıdır.

5) Bu qərardadın 3 və 4-cü maddələrində zikr edilən məlumat, oda və ev sahiblərindən daxil olan bəyanat əsasına olmayıb, dürüst və təhqiq edilmiş məlumata istinadən tərtib verilməlidir. Buna görə də uçastka pristavlarının borcudur boş və boşanılacaq oda və evləri bilatəxir həman siyahıya daxil edib möhürləməlidir və ya oda sahiblərinin boyun qaçırtmaları və yainki xudsəranə [özbaşına] ev və ya odaları kirayə vermələri, təhvil və ya təbdilləri xüsusunda uçastka pristavları bilatəxir qradonaçal-

nik vasitəsilə mənə məlumat verməlidirlər.

Bununla bərabər, bütün polis xidmətçiləri bu qərardadi-məcburinin keçmiş maddələrində göstərilən ev və ya oda məsələlərinə son dərəcə ciddi və şədid [şiddətli] bir surətdə olmalıdır. Bu xüsusda səhlənkarlıqları müşahidə edilən müqəssirlər mənim tərəfimdən təhtiməsuliyyətə [məsuliyyət altına] alınacaqdırlar.

*Bakı Müstəhkəm Dairəsi*
*general-qubernatoru:*
*Murad Gəray Tlexas*

**Məşixətdən**

Məşixəti-İslamiyyənin [Müsəlman Şeyxülislamlıq İdarəsinin] həmin noyabrın 1-də tərtib tapan 36 nömrəli hökmü ilə Nuxu şəhərinin sakini Əbdüləli Məşhədi Abbas oğlu Zülfüqarov Nuxu qəzaxanasına kargüzar təsdiq olunubdur, həmin sənə sentyabrın 1-dən xidmətinin ibtidası [başlanğıcı] hesab olunmaq şərti ilə.

*Məşixət sədrləri əvəzində:*
*Şeyx Həsən Axund Molla Sadıqzadə,*
*Əbdülxalıq Əfəndizadə.*

## ƏHVALİ-ÜMUMİYYƏ

Son zamanlarda Avropa siyasiyyati-ümumiyyəsinin bir təbəddül [dəyişiklik] üzrə bulunduğuna dair əlamətlər gözükməkdədir.

Fəqət bu təbəddülatı hiss və dərk etmək üçün Sülh Konfransına ətfi-nəzər etmək [baxmaq] faydasızdır. Sülh Konfransı həqiqətdə siyasiyyati-ümumiyyənin bir amili və əhvali-ümumiyyədə hiss edilən fırtına və ya yağışı göstərən bir barometrəsi də olammaz.

Paris Konfransı çoxdan bəri dayandı, durdu.

Onun ilk əvvəllərdəki qəti və müəyyən yolu şimdi heç də gözükməyir. O, bizzat [şəxsən] özünün də qüvvət və mətanətinə əmin deyildir.

Sülh Konfransı indi susub qalmış və konfransda iştirak edən dövlətlər də bir tərəfə çəkilmək üçün yol aramaq üzrə bulunmuşdur.

Əvət, Sülh Konfransında iştirak edən dövlətlər beynəlmiləl məsələlərdən, beynəlmiləl vəzifə və məcburiyyətlərdən bir an əvvəl uzaqlaşmaq, sıyrılmaq üzrədirlər.

Bunun üçün də məsələn hər gün qəzetələri təqib edən oxuyucular siyasi təbəddülatı Sülh Konfransının nə qərarlarında, nə də bəyanatında görüb bilir.

İndi bu qərarlar və bəyanat yoxdur, bunun yerinə böyük dövlətlərdən hər birinin müxtəlif məslək sahibi mətbuatından və hökumət qarşısında məsul bulunan dövlət adamlarının bəyanatından əhval və təbəddülati-siyasiyyəni [siyasi dəyişiklikləri, dalğalanmaları] anlamaq mümkün olur.

İştə böylə bir təbəddülati-siyasiyyə şimdi də Avropanın Rusiya siyasətində hiss edilir. Bu son zamanlarda Avropa qəzetələrində Rusiya məsələsinə dair büsbütün başqa mülahizə və nöqteyi-nəzərlər görünməkdədir.

O cümlədən İngiltərə siyasətinin başlıca amil və hakimi bulunan Lloyd Corcun son günlərdəki sözləri dəxi bu siyasi təbəddülata bir növ əlamət (simptom) olmaqdadır. Rusiya səfiri [Vasili] Maklakovun Rostov qəzetələrində intişar etmiş [nəşr edilmiş] məqalələri də kafi dərəcə bu təhəvvülatı göstərməkdədir [çevrilmələri, dəyişiklikləri].

Fəqət bütün bu söz və yazılar bir şeyi isbat edir ki, o da şimdiyə qədər Avropanın Rusiya məsələsi haqqında qəti və müəyyən bir siyasəti yox imiş. Digər tərəfdən siyasiyyati-ümumiyyədə solluqlar da gözükməkdədir.

Şimdiyə qədər Avropa siyasətində "Böyük Rusiya"nı ehya [diriltmək] və inşa etmək yolu var idi. İndi isə bu "Böyük Rusiya"nı bir ölçüb-biçmək, ona bir qiymət təyin etmək siyasəti çıxdı.

Lloyd Corc son günlərdə sabiq Hohensollern və Romanov xanədanını istixfafkar [saymazyana] bir surətdə zikr etdi və ümidvar oldu ki, bunlar əbədiyyən tarix səhifələrinə gömülüb qalarlar. Buna müqabil, böyük bir həvəs və həyəcanla Rusiyadakı kiçik millətlər və hökumətlərin hürriyyət və müqəddəratından bəhs etdi.

Avropa mətbuatının bir çoxları qəti surətdə bir məsələni ortaya qoyurlar: "Ya Rusiyanı zorla diriltmək və bizim qüvvətimizlə də bu işdə iştirak etmək, yaxud da Rusiyada əmələ gəlmiş kiçik millətlərin istiqlaliyyətlərini qəbul və təsdiq edib, onlarla birər ittifaq əqd eyləmək [bağlamaq]." Şübhəsiz bu axırıncısına daha da bir rüchaniyyət [üstünlük] verməkdədirlər.

Rusiya səfiri Maklakovun məqaləsi hüzün və təəssürlərlə məmludur [doludur]. Maklakov deyir ki:

*"Avropanın dövlət adamları başlarını ağrıdırlar və yaqin edəmməyirlər – hansı yol daha doğrudur. Fəqət bu məsələni həll etməyə onlar müqtədir deyildirlər. Etilaf [Antanta] dövlətləri bir təbəddülat içərisində qalıb nə edəcəklərini bilməyirlər. Etilaf dövlətlərinə nisbətən Almaniya daha ziyadə siyasi işlərdə müqtədirdir, çünki heç olmazsa alman siyasəti hansı yol ilə getdiyini və nə edəcəyini bilir. Əgər Rusiya məsələsi haqqında Avropa siyasəti böylə gedərsə, Avropada hər dövlətdən biri ayrı-ayrı Rusiya məsələsinə barmaq vurmaqdan başqa bir nəticə çıxmayacaqdır."*

İştə, bu surətlə Avropa siyasəti böyük bir dəyişikliyə məruz bulunduğu kimi, bizzat demokratizm və millətlər müqəddəratı məsələsi də getdikcə nüfuz bulmaqdadır.

Bilxassə bu son günlərdə "Böyük Rusiya"nın daima siyasi bir rəqibi olan Corc Nataniel Kerzonun (Curson) İngiltərə Xariciyyə naziri olması Rusiya məsələsi haqqındakı siyasi nöqteyi-nəzərin tamamilə dəyişəcəyinə bir əlamət olur.

Kerzon Hindistanda katibi-ümumi olaraq xidmət etmiş, Hindistan müsəlmanları haqqında ciddi tədqiq və tətəbbölərdə [araşdırmalarda] bulunmuş və daima bir Hindistan Federasyonu fikrini müdafiə etmiş bir siyasidir. Rusiyanın tarixi-siyasidə yenə ən böyük siyasi rəqibi olan Lord Solsberi kabinəsində də Kerzon Xariciyyə Nəzarəti ikinci katibliyində bulunmuş və Lord Solsberi ilə həmrəy olmuşdur. Bundan başqa, məsələn, 1899 ilində Hindistan canişinliyində bulunaraq ingilis siyasətinin Hindistandakı əsas və əməllərini [prinsip və məqsədlərini] cızıb qoymuşdur.

Rusiya haqqında Kerzonun məşhur bir əsəri də vardır: "Mərkəzi Asiyada Rusiya və Rusiya-İngiltərə məsələsi".

Bu əsərində Kerzon Rusiyanı parçalamaq fikrini müdafiə edərək, böyük

çarlığa qarşı şiddətli hücum və tənqidlər yapmışdır.

Əlbəttə, Kerzonun bu sırada İngiltərə Xariciyyə Nəzarətinə keçməsi, öz siyasi prinsipi ilə Lloyd Corc kabinəsinin anlaşdığını göstərir.

Təbiidir ki, İngiltərənin Rusiya siyasəti haqqında indiyə qədər təqib etdiyi qeyri-müəyyən siyasəti artıq bir qətiyyət kəsb edə [qazana] bilər.

Amerika ilə İngiltərənin Şərq və Rusiya məsələsində nasıl bir etilaf yapacaqları [razılığa gələcəkləri] şimdidən kəsdiriləmməzsə də, hər halda Rusiyadakı cümhuriyyətlər, Türkiyə və Şərq məsələsi haqqında İngiltərə siyasətinin Amerika üçün də o qədər böyük bir ziddiyyət çıxarammayacağı aşkardır. Deməк ki, Rusiyadakı cümhuriyyətlərin müqəddəratı haqqında olduqca əlverişli bir sahə açıldığına əlamətlər vardır. Fəqət buna müqabil, Rusiya cümhuriyyətləri ilə vuruşan Kolçak və Denikin macərası nə şəkil ala bilər? İştə bu da ikinci bir siyasi kombinasiya ilə anlaşılacaq bir məsələdir. Ya Kolçak və Denikin İngiltərə siyasətinə tabe olub o dairədə hərəkət etməli, yaxud da hər təhlükə və müxatirəni [xətəri] gözə alaraq, cümhuriyyətlərlə qəti bir müharibəyə girib, Antanta dövlətlərinə də müğayir bir təriq [zidd bir yol] tutmalıdır.

Hər halda bir şey aşkardır ki, başımızda böyük siyasi əhval və təbəddülat var ikən Qafqaziya cümhuriyyətlərinin mümkün mərtəbə aralarında ittifaq və etilaf daha da qüvvətli bir şəkil almalıdır.

Yalnız Qafqaziya cümhuriyyətləri deyil, siyasi əhval bizə ümum Rusiyadakı cümhuriyyətlərlə də əlaqə və ittifaqa girməyi tələb etməkdədir.

Çünki mənfəət bir, siyasi və milli müqəddərat da bir və eyni haldadır.

*Ə[hməd] H[əmdi] Qaraağazadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

***13 noyabr iclası***

*Mabəd*

**Doktor Bəhram bəy Axundov** – Mustafa Mahmudovun nitqinə təəccüb edir, deyir ki, biz heç bir zaman xəstələrə deyə bilmərik ki, az yeyiniz. Getdikcə məişətin bahalaşdığına işarə edərək deyir, əgər siz istəyirsiniz ki, qulluqçular orada gedib əyləşsinlər, qabil həkimlər olsun, o surətdə bu layihəniz qaytarılmalıdır, yenidən baxılıb buraya gəlməlidir.

**Qasım bəy Camalbəyov** – 20 manatın heç bir zaman indiki halda xəstələri təmin edəmməyəcəyini etiraf edib deyir ki, bu qanun layihəsi 6 ay bundan əvvəl buraya gəlmiş, bu vaxtadək təsdiq edilməmişdir. Parlamanın vəzifəsi komisyonun və qeyrilərinin səhvlərini düzəltməkdir. Böylə xəstəxanaların açılmaması daha yaxşı olduğuna işarə edərək deyir ki, Göyçayda bir xəstəxana açılmış, burada hər xəstəyə gündə 10 manat verilib. İndiki halda 10 manata bir xəstəni nə növlə tədavi [müalicə] etmək olar?





Təklif edir ki, ümumiyyətlə bütün xəstəxanalar üçün bir layihə tərtib etməlidir.

**Rza Qaraşarov** – Layihədə hər halda nöqsan olduğunu söyləyir. 6 ay bundan əvvəl bu smetanı bəlkə bir növ qəbul etmək mümkün olardı. İndiki halda 600 manata heç bir aşpaz tutmaq olmaz. Natiq təklif edir ki, layihə geri qaytarılsın. Parlaman öylə bir şey qəbul etməlidir ki, sonradan onu dəyişmək məcburiyyətində olmasın.

**Ağabəyov Rza bəy** – Nitqində deyir ki, məruzəçinin təkidinə görə ki, bu qanun layihəsi çoxdan bəri komisyonda qalmışdır, biz onun qəbulunu xahiş etdik. Hökumət bu smetanı tərtib etdikdə, nəzərində yalnız Şuşa xəstəxanasını tutmamış, ümum məmləkət halını və xəstəxanalarını tutmuşdur.

Bu xəstəxana bu vaxtadək yaşamışdır. Vəqta ki [o halda ki], yaşamışdır, bu surətdə qəbul etməlidir.

Son söz məruzəçiyə verilir.

**Məruzəçi** – Deyir, xidmətçilərin maaşını əgər bu gün qəbul etsək, onların üzərinə ümum xidmətçilərin maaşlarına əlavə edilən faizi də əlavə edilər. Ancaq xəstələrin gündəliklərini artırmaq olar.

Sədr **Sultanməcid [Qənizadə]** – 2-ci maddəni (smetanı) səsə qoyur.

Əksəriyyətlə keçir. Layihənin 3-cü qiraəti gələcək iclasa buraxılır.

2-ci məsələnin – ünas edadilərində mürəbbi müavini [qız liseylərində tərbiyəçi müavini] vəzifəsi təsisi xüsusundakı qanun layihəsinin müzakirəsinə keçilir. Məruzəçi sifəti ilə Əhməd Cövdət [Pepinov] izahat verir. Ünas məktəblərində mürəbbi müavini təşkil olunması lazım gəldiyini, bu xüsusda Maarif Nəzarəti tərəfindən bir qanun layihəsi təqdim edildiyini söyləyir. Qəbulunu komisyon tərəfindən rica edir. Layihənin əsasları barəsində danışan olmadığından, 2-ci qiraətinə keçilir. Layihə 2-ci qiraətdə qəbul edilib, 3-cü qiraəti gələcək iclasa qalır.

10 dəqiqə tənəffüs elan edilir.

Tənəffüsdən sonra iclas Sultanməcid Qənizadənin sədarəti ilə açılır. Növbədəki məsələ Azərbaycanın bəzi nöqtələrində şal, xalı və başqa əşya toxumaqdan ötrü iş evlərinin güşadı [açılması] üçün 3,694,000 manat buraxılması haqqında qanun layihəsidir.

Məruzəçi Muxtar Əfəndizadə iclasda hazır olmadığından, məsələ növbədən götürülüb, Daxiliyyə Nəzarətinin ştatasının böyüməyi haqqındakı məzkur [adı çəkilən] Nəzarətə 23,800 manat buraxılması haqqındakı qanun layihəsinin müzakirəsinə keçilir. Məruzəçi sifəti ilə Qara bəy Əliverdili izahat verir. Deyir ki, Daxiliyyə Nəzarətində bir çox işlərin artmasına görə, lazım gəlir ki, bir neçə tərcüman olsun. Zira gələn kağızları ruscadan türkcəyə tərcümə etmək ehtiyacı vardır. Ona görə iki nəfər tərcümanın ilin axırına qədər 23,800 manat smetasına baxılıb Maliyyə Nəzarətində qəbul edilmişdir.

Natiq işbu qanun layihəsinin qəbulunu rica edir. Qanun layihəsi müzakirəsiz qəbul edilərək, 2-ci qiraətinə keçilir. Maddəbəmaddə oxunaraq səsə qoyulur. 3-cü qiraəti gələcək iclasa buraxılır.

Növbədə sosialistlərin sorğusudur. Hökumət nümayəndəsi məclisdə olmadığından, sorğu gələcək iclasa buraxılır. Əbilov İbrahim növbədənxaric söz alaraq kürsiyi-xitabətə çıxır.

**Əbilov** – Keçən iclasda rəisin təklifi ilə və Parlamanın qərarı ilə iclasdan kənar edilməsinə işarə edərək deyir:

Parlaman kürsüsündən Parlaman üzvləri söz söyləməyə hürrdürlər. Nədənsə rəis əfəndi bəzi firqə natiqlərinə imkan verdiyi halda, mənə mane oldu.

Mən heç bir zaman Parlamanı və sədri təhqir etmək istəmədim və bu fikirdə olmamışam. Mənə söz verilmədi, mən də səsimi ucaltdım. Məni iclasdan kənara çıxartdılar. Mən sədrin böylə bitərəf olmamasına etirazla, Parlaman və rəisini təhqir etmək fikrində olmamışam.

Sədr **Sultanməcid [Qənizadə]** – İzahat verir. Deyir ki, burada qanundankənar iş olmamışdır. Siz dişarı çıxarılarkən əgər söz istəsəydiniz, sizə söz verilərdi. Sizin əvəzinizə Səməd ağa [Ağamalıoğlu] söz istədi. Ona da söz verilmədi, çünki sən özün də razılıq verməmişdin ki, başqası sənin əvəzinə danışsın.

İclas saat 3-də qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən alınmışdır)*

**16 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Narva cəbhəsində bizim qoşunlarımız düşmənin şiddətli müqavimətinə baxmayaraq, göl boğazlarında olan istehkamatını yararaq ricət edən [geri çəkilən] düşməni təqib etməkdədir.

Yamburq dairəsində yürüşümüz davam edir.

Çud gölü səvahilində [sahillərində] bizim hisslərimiz dəmiryol xətti ətrafında və Narva nəhrinin şərqində bir neçə kənd işğal etmişlərdir.

Dvinsk-Polotsk hissəsində vuruşmalar davam edir.

Lepel dairəsində bizim hissələrimiz 30 fərsəx cəbhə boyunda Lepeldən şimala olan göllükləri keçmişlərdir. Yürüşümüz davam edir.

Novoqrad-Volınski cəbhəsində düşmən yürüşümüzü saxlamaq təşəbbüsündədir.

Çerniqov dairəsində təbəddülatsızdır [dəyişiklik yoxdur].

Rilsk dairəsində - Bizim yürüş edən hissələrimiz Rilskın 15 fərsəx şimalında olan kəndlərin xəttinə çıxmışlardır.

Qdov və Kursk cəbhələrində yürüşümüz müvəffəqiyyətlə kəsbi-dairə etməkdədir [genişlənməkdədir].

Novoxopyorsk dairəsində bizim hissələrimiz düşməni münhəzim [məğlub] edərək Novoxoproyskun cənub-qərbindəki xətlərə çatmışlardır.

Sarev dairəsində - Sarevdən qərbə tərəf şiddətli vuruşmalar gedir.

Krasnoyar dairəsində - Krasnoyarın 30 fərsəx şimal-şərq və cənub-şərqində vuruşmalar davam edir.

Slonim dairəsində - təbəddülatsızdır.

Leşin cəbhəsində - Uralskdan 80 fərsəx cənub-qərbdə bizim hissələrimiz bir neçə kənd işğal edib irəli hərəkətlərində davam edirlər. 200 əsir və 10 mitralyoz qənimət alınmışdır.





Çolkur gölü şərqində irəli hərəkətimiz müvəffəqiyyətlə davam edir.

Akmolinsk cəbhəsində - Bizim hissələrimiz yürüşlərində davam edirlər.

Omsk dairəsində - Qəhrəman qırmızı hissələrimiz Irtış nəhrini keçərək küçə vuruşmalarından sonra Kolçakın paytaxtı Omsk şəhərini işğal etmişdir.

Bu vaxta qədər 9000-dən ziyadə əsir hesaba alınmışdır. Külli miqdarda hərbi qənimətlər alınmışdır. Miqdarı məlum edilmək üzrədir. Düşmən pərakəndə bir surətdə şərqə tərəf atılmışdır. Təqib davam edir. Omskun 50 fərsəxliyində bizim hissələrimiz Irtış nəhrini keçərək nəhrin sağ kənarında bir neçə kəndi işğal etmiş və qənimət almışdır.

## QƏZETƏLƏRDƏN

**Hindenburqun general Denikinə məktubu**

"Y. V." qəzetəsi Taqanroqdan xəbər verir ki, bu günlərdə Baş komandana alman amiralı Fon Hoppe təqdim edilmişdir. Mumaileyh [adı çəkilən şəxs] general Denikinə feldmarşal Hindenburqun əli ilə yazılmış aşağıdakı məzmunlu bir məktub gətirmiş imiş:

*"İki yüz sənə bundan irəli Rusiyanın böyük ricalından [dövlət xadimlərindən] olan imperator Böyük Petro Almaniya ilə müharibəyə girişilməməsini xələflərinə tövsiyə etmiş və şu müharibə Rusiyanın məhv və tələfinə bais ola biləcəyini bildirmişdi. 50 sənə bundan əqdəm [qabaq] Almaniya ricali-əzəmindən [böyük dövlət xadimlərindən] Bismark da imperator Vilhelmə həman eyni məalda [məzmunda] bir tövsiyədə bulunmuş, Rusiya ilə müharibə eyləmək Almaniyanın tələf olması ilə müsavi olacağını söyləmişdi.*

*Şu iki kişinin söylədikləri hal-hazırda yerini almış, iki müəzzəm [əzəmətli] dövlət məhv və məqhur [qəhr] edilmişlərdir.*

*Bu iki dövləti coğrafi vəziyyətlərindən əlavə bir çox mənafeyi-müştərəkələri də yek-digəri ilə mərbut edir [bir-biri ilə bağlayır] ki, ona görə hər iki dövlətin əl-ələ verib keçmiş əzəmətlərini bərpa etmələri üçün birlikdə getmələri lazımdır."*

Məktubun sonunda general Denikinin vətənpərvərliyi təqdis edilir [təriflənir, göyə qaldırılır].

General Denikin məktuba cavab verməmişdir.

* * *

Kuban heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] general Denikinin əmrnaməsi ilə hərbi məhkəməyə verilir.

Əmrnamənin surəti:

*"İşbu sənə təmmuzunda [iyulunda] Kuban hökuməti ilə Dağıstan Məclisi bir müahidənamə əqd etmiş [saziş imzalamış] və şu müahidənamə mövcibincə [bu sazişə əsasən], Rusiyaya xəyanət edilərək, Şimali Qafqaziyanın Kuban kazak qoşunu[nu] Məclisin ixtiyarına vermişdir ki, bu da Terek qoşununu tələf etmək deməkdir. Müahidənaməni bir tərəfdən Bıç, [V.] Savitski, Kulabuxov və Namitokov və digər tərəfdən Çermoyev, [İbrahim bəy] Heydərov, Xadzaraqov və Bammatov imza etmişlərdir.*

*Bu şəxslər Cənubi Rusiya Qüvayimüsəlləhəsi [Silahlı qüvvələri] ərazisinə*

*nümayan olarkən [ərazisində görünərkən], xəyanətlərindən dolayı onların bilatəxir [dərhal] bir hərbi məhkəməyə verilməsini əmr edirəm.*

*Denikin*
*Taqanroq, 25 təşrini-əvvəl"*
*"Bakinets"*

**Kuban hökumətinin qətnaməsi**

26 təşrini-əvvəldə [oktyabrda] Hökumət Şurası məhəlli [yerli] qəzetələrdə nəşr olunan "Etilaf müahidənaməsi"ni ["Razılaşma sazişini"] müzakirə etmiş və bədəz-müzakirə [müzakirədən sonra] Şura qət etmişdir ki, əqd edilmiş müahidənamə vəkalətsiz əşxas [şəxslər] tərəfindən imza edildiyinə görə, hökuməti heç bir şeyə məhud etməyir [hökumətin boynuna heç bir öhdəlik qoymur] və müahidənaməni imza edən Bıç, Kulabuxov, Namitokov və general Savitski vəkalətlərini artırmış [səlahiyyətlərini aşmış] hesab edilir.

*"P."*

**Portuqaliyada**

Portuqal Kongresinin xüsusi sessiyası açıldıqda Portuqal Cümhuriyyətinin yeni prezidenti Almeyda Məşrutəyə [Konstitusiyaya] sadiq qalacağına and içmişdir. Almeyda nitqində söyləmişdir ki, mənim intixab edilməmə [seçilməyimə] səbəb vətən mənafeyinə və Müttəfiqlər işinə sadiqliyim olsa gərəkdir. Təqib edəcəyim siyasətin məqsədi daxilən sülh və asayişi təmin etmək olacaqdır və ümid edirəm ki, müvəffəq də olacağam.

Öylədən [günortadan] sonra Portuqal Cümhuriyyətinin 9-cu səneyi-dövriyyəsi [ildönümü] tamamı münasibətilə rəsmi-keçid [parad mərasimi] icra edilib, yeni prezident əhali tərəfindən təbrik edilmişdir.

**Yeni hərbi gəmilər**

"Matin" qəzetəsinin verdiyi məlumata görə, Cəmahiri-Müttəfiqədə [Birləşmiş Ştatlarda] 145 sajın uzunluğunda 55000 tonu (ton 62 puddur) hamil ola bilən [daşıya bilən] bir qaç hərbi gəmilər inşa edilərək suya buraxılmışdır.

**Yeni təyyarə**

Blerio yeni bir təyyarə (aerobus) inşa etmişdir ki, 28 sərnişin qaldırır.

Parisdə məkulat [ərzaq]

Parisdə yağ, yumurta və süd çox çətinliklə bulunur. Sen vilayəti valisi ancaq üç yaşından kiçik çocuqlar üçün süd kartoçkası verilməsinə müsaidə etmişdir.

**General Yudeniçin əmrnaməsi**

General Yurdeniç aşağıdakı əmrnaməni vermişdir:

*"Polkovnik Bermondt-Avalov mənim əmrnamələrimin birini də vəqti-müəyyəndə [öz vaxtında] ifa etmədiyinə və latış qoşunlarına təərrüzə başlamasına görə, onu xain elan edərək, özünü və əsgərlərini Şimal-qərb ordusu heyətindən ixrac edirəm. Vəzifələrinə sadiq olan zabitana əmr edirəm ki, dəniz təriqi [yolu] ilə (İngiltərə siyasi heyəti vəsatəti [vasitəçiliyi] ilə) Şimal-qərb ordusu cəbhəsinə övdət etsinlər [qayıtsınlar]."*

"Russki den" qəzetəsi polkovnik Bermondtun tərcümeyi-halını yazaraq, onu alman agentliyində ittiham edir.





**TÜRKİYƏDƏ**

**Mustafa Kamal paşanın şayani-diqqət bir raporu**

a) Daxilən təqviyeyi-hökumət və təmini-rəsanət [hökumətin möhkəmləndirilməsi və dözümlülüyünün təmin edilməsi] – jandarması, qüvvətli məmurları, mümkün olduğu ümuri-ədliyyəsi [ədliyyə işləri], hər halda iaşeyi-ümumiyyəsi ilə ümuri-ticariyyə və iqtisadiyyəni tənzim etmək [qaydaya salmaq]; heç olmasa, sui-istemalatı həddi-əsğəriyə və qabili-təhəmmül bir dərəcəyə [vəzifədən sui-istifadə hallarını minimal səviyyəyə və dözmək mümkün olan dərəcəyə] endirməkdir; o surətlə ki, məmləkət sağlam bir üssülhərəkə [stratejik mərkəz; mərkəzi qərargah] halında bulunmalı və imtidadi-hərb [müharibənin uzanması], məazallah [Allah eləməsin], yeni zıyalar [itkilər] və fəlakətlərə səbəb olsa da, əlimizdə və arxamızda qalacaq mənatiq [məntəqələr] və əhalini, hər halda, dayanmaz [dözümsüz] çürük bir kütlə halında bulmamalıyız.

b) Siyasəti-əsgəriyyəmiz bir müdafiə siyasəti və əlimizdə bulunan qüvvətləri və bir tək nəfəri [əsgəri] son ana qədər saxlamaq siyasəti olmalıdır. Bu siyasət məmləkətimiz xaricində bir tək Osmanlı nəfəri qalmasına mütəhəmmil olammaz [icazə verə bilməz, dözə bilməz]. Sina cəbhəsinin təmini təərrüzləmi [hücumlamı] və ya müdafiə iləmi qabil və müsib [mümkün və doğru, hədəfə çatan] olacağı məsələsinə bu gün qərar veriləmməz. Çünki düşmən bu gün orada insanca və ləvazimatca bizə mütəfəvviq [üstün] olub, bizim bütün qüvvətlərimizi göndərə biləcəyimiz aylar zərfində intizar etməsinə [gözləməsinə] ehtimal fənnən [texniki baxımdan] pək azdır.

Bizim qüvvətlərimiz gəlməzdən əvvəl onun təərrüz edərək, qarşısındakı qüvvət əleyhinə bir nəticeyi-qətiyyə istehsal etməyə [qəti bir nəticə əldə etməyə] təşəbbüsü təbiidir. Bundan başqa, bizim qüvvət sövq edəcəyimiz iki ay zərfində, düşmən istərsə, vəsaiti-nəqliyyə [nəqliyyat vasitələri] etibarilə daha çox qüvvət gətirməyə müqtədirdir. Binaənileyh [ona görə], düşmən daha əvvəl təərrüz etmədiyi halda dəxi bizim sövqiyyatımız xitam bulduqdan sonra bugünkü təfəvvüqünü təzyid etmiş [üstünlüyünü artırmış] bulunması ehtimal daxilindədir.

Vəlhasil, Hələbdə bulunan qüvvətlərimizin Sina cəbhəsinə nə qüvvət və qiymətdə müvasilət edəcəyi [gedib çatacağı] dəxi məlum olmadığından, Sina cəbhəsinin təmini üçün bu gün mövqeyi-tətbiqə qonulacaq [tətbiq ediləcək] qərar müxtəsərən Yeddinci ordu qitəatının [hissələrinin] həman cənuba təhriki [hərəkət etməsi] mahiyyətində ola bilər. Bu qüvvətlərin bilaxirə [daha sonra] nasıl istemal [istifadə] oluna biləcəyini bu gün qətiyyətlə təyin etməyə, qüvvətlərimizi israf etməmək mülahizəsindən sərfnəzər [vaz keçsək belə], xəritə üzərindəki əsgərlikcə dəxi imkan yoxdur.

Yeddinci ordu qitəatının cənuba təhriki ilə hüsula gələcək xəliteyi-əsgəriyyənin [hərbi kütlənin] hər dürlü qüyudi-müziceyi-siyasiyyədən [usandırıcı siyasi zəncirlərdən] azadə və məmləkətin daxili və xarici bütün ehtiyacatına vəfa [kifayət] edə biləcək bir surətdə tənzim və sövq-idarəsində ən kəsdirmə təriq [yol] şudur.

Bütün Suriya və Hicaz şimdiyə qədər olduğu kimi hər xüsusda bir müsəlman osmanlıya aid olur və bunun təhti-əmrində [əmri altında] olaraq Sina cəbhəsinin hərəkatını müstəqillən [müstəqil olaraq] digər bir müsəlman osmanlı dəröhdə edər [öhdəsinə götürər]. İştə, mənafeyi-vətəniyyəyə ən müvafiq olan şəkil budur.

General Falkenhaynın gəlmiş və onunla təəhhüdati-müstəcələ yapılmış [tələsik öhdəliklər imzalanmış] və Kressin minəlqədim iktisabi-hüquq etmiş [keçmişdən haqq əldə etmiş] olması, əlhasil, almanları idarə etmək kimi əsbab və əvamili [səbəbləri və amilləri] mənfəəti-vətəniyyənin istilzam etdiyi [vacib etdiyi] şəkli-vazeh və qətiyə [açıq-aşkar və qəti şəklə] mane olammaz etiqadındayam. Həyat və məmat məsailində olsun ətayi-qərar haqqından məhrum bulunduğumuzu zənn etməyirəm [Heç olmasa ölüm-qalım məsələlərində qərar vermək haqqından məhrum olmadığımıza inanıram]. Mahəza [bununla belə], mənim bildiyim əsbab [səbəblər] Falkenhaynın istixdamı [xidmətə qəbul edilməsi] məcburiyyəti uğrunda mənafeyi-vətəniyyəni qismən təhlükəyə düşürüləcək dərəcədə qüvvətli ədd [hesab] etməyir və Sina cəbhəsinin Kressin və Yeddinci ordu komandanının təhti-əmrində [əmri altında] iki ordu tərəfindən müdafiəsi və bu iki orduya Falkenhaynın komanda etməsi icab edirsə [lazım gəlirsə], mənfəəti-vətən üçün bu surətlə xidmətdən ictinab olunmaz [çəkinmək olmaz]. Ancaq bu halda general Falkenhaynın bütün Suriya və Hicaza komanda edən zatın təhti-əmrinə [şəxsin əmri altına] girməsi münaqişəyə mütəhəmmil olmayan [mübahisə götürməyən] bir məsələdir.

Bu halda dövlət nəzərində ən ali məsul bir osmanlı olub, bütün qüvayi-daxiliyyə və siyasiyyə [daxili və siyasi qüvvələr] onun əlində və Falkenhayn münhəsirən [sadəcə olaraq] bir əsgəri komandan vəziyyətində qalar. Sövq və idarənin xütuti-əsliyyəsilə [əsas istiqamətlərilə] bərabər, bilcümlə arxadakı xidəmat [xidmətlər] və vilayatın və əşairin [vilayətlərin və aşirətlərin] idarəsi bizim məmləkətimizin bir öz övladının təhti-idarəsində [idarəsi altında] bulunar.

Yeddinci ordu komandanlığında qaldığıma nəzərən, mənim müstəqil və qanunən bütün arxadaşlarıma müadil [bərabər, eyni səviyyəli] bir ordu komandanı ikən, bu surətlə ikinci və üçüncü dərəcədə bir komandan vəziyyətinə düşməkliyim mövcibi-təəssür olsa da [məni mütəəssir etsə də], bu cəhət mənafeyi-vətəniyyə qarşısında məskut buluna [dilə gətirilməyə, üstündən sükutla keçilə] bilər. Ancaq bu təqdirdə nəzəri-diqqətdən dur [uzaq] tutulmamaq lazım gələn nazik bir nöqtə vardır.

Birinci qolordu [korpus] qitəatı [hərbi hissələri] kamilən gedib, Kresin qitəatı ilə mənim qitəatım qabili-təfriq [bir-birindən ayrılması, fərqləndirilməsi mümkün olan] bir hala gəlməsinə əhvali-hərbiyyə mane ola bilər. Yəni daha biz nəqliyyata başladığımız andan etibarən düşmən Sina cəbhəsinə təərrüzə başlar. Bu halda görülən qüvvətlərin arzu edildiyi kimi bir komandaya rəbtinə [bağlanmasına, tabe edilməsinə] əhval müsaid olammayıb, hər gələn qitənin [hərbi hissənin] parça-parça müharibəyə və yek-digərini mütəqaib





[bir-biri ardınca] Kressin komandasına girməsi icab edə [lazım gələ] bilər. Bu hala görə, nəhayətdə ordu qərargahı yalnız başına fəzlə və işsiz bir şəklə girib, bütün qitəat parça-parça Kressə aid qalmış bulunar. Əgər vəziyyəti-hərbiyyə bu surəti-hərəkəti məcburi qılarsa, vətənin müqəddəratı mövzuyi-bəhs olarkən bizzərur [zəruri olaraq] kəndimin seyirçi qalmama təvəkkül və təhəmmül edəməməm [dözə bilmərəm].

Bu halda yapacağım iş ən ufaq bir qitənin müdaxilə etdiyi cəbhəni və müharibə xətlərini bilaqeydü-şərt [qeydsiz-şərtsiz] kəndi təhti-əmrimə [əmrim altına] almaqdır. Yəni qüvvətlər müharibə səbəbi ilə Sina cəbhəsində bir komanda altında əriməyə məcbur olarsa, bu komandan ancaq mən ola bilərəm. Daha bidayətdən [başlanğıcdan] etibarən bu nöqtəni görmüş və buna qərar vermiş olmaq lazımdır. Suriya heyəti-ümumiyyəsinin Falkenhayna verilməməyəcəyi məsələsində almanları qırmaq [küsdürmək] və onların qüvvət və lüzumlarını ehmal etmək kimi qısa bir mülahizəyə tabe olmadığıma etimad buyurmalısınız.

Əlyövm [hal-hazırda, bu gün] içində bulunduğum bataqlıqdan almanlarla bərabər bulunaraq qurtulmaq zəruri isə də, almanların bu zərurətdən və ümuri-hərbdən [hərbi işlərdən] istifadə edərək bizi müstəmləkə şəklinə soxmaq və məmləkətimizin bütün mənabeyini [qaynaqlarını] kəndi əllərinə almaq siyasətinə müarizəm [qarşıyam] və ricali-dövlətin [dövlət adamlarının] bu xüsusda, heç olmasa, bolqarlar qədər müstəqil və əsbabi-istiqlalda qısqanc olduğumuz almanlarca gərəyi kimi anlaşıldığı gün, onların bizi bolqarlardan daha mötəbər görəcəklərinə sizi təmin edər və hüsn-idarə edəcəyiz deyə mütəmadiyən [daim] fədakarlıqda bulunmaq hər hankı bir müttəfiqə və təxsisən [xüsusilə] almanlara mərhəmət və insaf təlqin etməyib [aşılamayıb], bəlkə verdiklərimizdən yüz qat fəzləsinə onları təhris [həris] və təşviq edər.

Bu gün Falkenhayn hər vəsilədə [hər fürsətdə] hər kəsə qarşı alman olduğunu və əlbəttə alman mənfəətini ən ziyadə düşünəcəyini söyləyəcək qədər mütəcasirdir [cəsarətlidir].

Hələbdə və Fəratda və Suriyada alman siyasəti və alman mənfəəti nə demək olduğunu və baxüsus [xüsusilə] bu sözü sərf edən bir alman konsulosu olmayıb, yüz minlərcə türk qanı üçün qərar vermək mövqeyində bulunan bir komandan olarsa, işin tamamən mənafeyi-vətəniyyəmizə qeyri-müvafiq cərəyan edəcəyini anlamamaq mümkün deyildir. Falkenhayn gəldiyi gündən bəri əşair rüəsasına [aşirətlərin rəislərinə, qəbilə başçılarına] alman mülazimləri [zabitləri, leytenantları] göndərərək doğrudan-doğruya təmas hasil etməkdə və “Ərəblər türklərə düşmən, biz almanlar bitərəf olduğumuzdan onları qazana biləriz” sözünü söyləməkdədir.

Falkenhayn İraq hərəkatının qeyri-qabili-icra olduğunu daha ilk gündən bəri anlamışdı. İraq hərəkətini məmləkətə yerləşməsi üçün vəsilə ittixaz etdi [vasitə kimi qiymətləndirdi], həqiqətdə idealı bütün Ərəbistanı alman idarəsinə almaq idi; nasıl ki, planın ikinci səfhəsinə [mərhələsinə] də başlamışdır.

İraq hədəfi təbiətilə [təbii olaraq, öz-özündən] təbəddül edincə [dəyişincə], Sina cəbhəsində bir təərrüzü mövzuyi-bəhs etdi. İki ay sonra təərrüz və ya müdafiəsi lazım olduğunun şimdidən kəsdiriləmməyəcəyi hər kəs kimi onun nəzərində də əyandır. Fəqət bugünkü təərrüz sözü bütün Suriya yəni Ərəbistanın təhti-idarəsinə girməsi üçün bir vəsileyi-cazibədən [cazibədar bir bəhanədən] başqa bir şey deyildir. İki ay sonra əhval təərrüzə qeyri-müsaid [vəziyyət hücum etmək üçün əlverişsiz] olub, bütün qüvvətlərlə Fələstinin müdafiəsi mümkün olarsa, general Falkenhayn cahana və məmləkətimizə qarşı ən böyük müvəffəqiyyəti qazanmış şəklində ərzi-vücud edəcəyinə [meydana çıxacağına] şübhə yoxdur. Fəqət bu halda təqviyeyi-hökumət və məmləkət [hökuməti və məmləkəti möhkəmləndirmək] şərti şöylə dursun, məmləkət kamilən bizim əlimizdən çıxaraq bir alman müstəmləkəsi halına girmiş olacaqdır və general Falkenhayn bu məqsəd üçün bizim borcumuz olan altunları və Anadoludan gətirdiyimiz son türk qanlarını istemal [istifadə] etmiş bulunacaqdır.

Vəlhasil, gərək hökuməti-mülkiyyə və gərək əhali içində yapılacaq işlərin ələladə bir məmləkət məsələsi deyil, ən birinci bir müdafieyi-məmləkət məsələsi olduğu bu dövrdə məmləkətin heç bir guşəsinin hər hankı bir əcnəbi təhti-nüfuz və idarəsinə [nüfuzu və idarəsi altına] verilməsi həyati-səltənəti [dövlət həyatını] qətiyyən ixlal və ibtal edər [pozar və puç edər]. İştə, mütaliatım [fikirlərim] bundan ibarətdir. Bulunduğunuz mövqe səbəbi ilə bunları sizə ixbar etməklə [xəbər verməklə], vicdanım üzərindən rəfi-bar etmiş [yükü qaldırmış] olduğuma qaneyəm.

*Mustafa Kamal*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətlə, faizsiz 15 milyonluq istiqraz verilməsi haqqında iqdamatda [təşəbbüsdə] bulunmasını rica etmişdi. Daxiliyyə Nəzarəti məsələni Maliyyə Nəzarətinə göndərib, kəndi nəzəriyyatı təqdimini rica etmişdir.

* * *

Ərazi Nəzarəti tərəfindən Sarı cəzirəsində [adasında] olan Amerika üzüm təhəngləri bağçasını saxlamaq üçün xüsusi bir büdcə hazırlanıb Vükəla Şurasına [Nazirlər Kabinetinə] təsvib [təsdiq] üçün idxal edilmişdir. İşbu bağça bir Bakı quberniyası deyil, bütün Zaqafqaziya üçün qiymətli bir bağçadır, zira buradan bütün Zaqafqaziyaya çubuqlar aparılır.

**Dabravol komandanı nümayəndəsinin Bakıdan getməsi**

Bazar günü işbu təşrini-saninin 16-da Bakıdakı dabravol komandanlığı nümayəndəsi miralay [polkovnik] Palitsin miralay Belyayevin məiyyəti [müşayiəti] ilə Xariciyyə naziri [müavini] [Məhəmməd] xan Təkinski həzrətlərini ziyarət etmişdir. Görüş vida görüşüdür.

Bunun səbəbi general [Nikolay] Baratova sui-qəsd edildiyi üçün Gürcüstan və Azərbaycan ilə müzakirat aparmaq vəzifəsini öhdəsindən götürdüyüdür. Bunların əvəzində digərləri gələcəkdir.

* * *

Ən yaxın zamanda Maliyyə Nəzarəti Şurası, Məhkəmə Şurası nümayəndələri və təşkilati-ictimaiyyə [ictimai təşkilatlar] nümayəndələri iştirakı ilə mədən şəhər və köyləri məsələsinə baxmağa başlayacaqdır. Əvvəllər bu məsələyə Senat baxırdı. Şimdi isə müvəqqəti olaraq Maliyyə Nəzarəti Şurasına verilmişdir.

* * *

Maliyyə Nəzarəti ehtimalına görə, 1920-ci sənədə dövləti torpaq vergiləri hər sənədəkindən fəzlə olmalıdır. Maliyyə Nəzarəti töycünü ləğv ilə ərazidən xüsusi faiz almaq xəyalındadır.

## BAKI ŞƏHƏRİNİN TƏHRİRİ-NÜFUS ƏNGƏLLƏRİ

Yeni Bakı bələdiyyə intixabatını [seçkilərini] mövqeyi-icraya qoymaq üçün bir milyon manat təxsis edilmişdir [ayrılmışdır] ki, Təhriri-nüfus [əhalinin siyahıya alınması] Komisyonu əzalarına [üzvlərinə] sərf edilsin.

Komissiyanın vəzifəsi şəhər əhlinin düzgüncə siyahısını tərtib verməkdir. İşin başında Bələdiyyə İdarəsi əzasından biri, yaxud şəhər əmini [bələdiyyə sədri] gərək dayana idi. Lakin böylə mühüm bir məsələni Rutşteyn familiyalı bir şəxsin öhdəsinə atmışdırlar ki, əhalinin, ələlxüsus müsəlman camaatının milli, siyasi və ictimai hallarından əsla xəbərdar deyildir.

Bir vaxt bu təhriri-nüfus fəqərəsini [məsələsini], ətrafını gözəl xanımlar əhatə etmiş Smirnov cənabına həvalə etmişlərdi. O cənab da şəhər işlərinə bələd olmayan dost və aşnalarını yanına cəlb etmişdi ki, "çörək ağacından", yəni şəhər kassasından onlar da mənfəətbərdar olsunlar. Şəhərin böyük pulları sərf edildi, nəticədə də müsəlman əhlinin ədədi sair millətlərinkindən az çıxdı.

Səbəb?

Təhriri-nüfus fəqərəsi ilə məşğul olan ağalar və xanımlar müsəlman məişəti və güzəranı ilə xəbərdar deyildilər. Məsələdən hali olmayan camaat bəzən bunları qovardı, bəzən evlərə yol verməyib küçələrdən geri qaytarardı. Bir qismi də məlumatın səhihini gizlədib, ailə əfradının [fərdlərinin] ədədini azaldardılar. Xülasə, avam camaat bildiyini yapırdı. Buna qarşı yazıçı əfəndilər də heç bir nəsihətdə, yaxud etirazda bulunmayıb, öyləcə vaz keçirdilər.

Zatən pul qazanmaq məqsədilə ortalığa atılmış yazıçılar əhalinin qapısınadək gəlib hər bir növ cavaba qane olaraq dərhal oradan savışırdılar. Daha nə üçün etiraz və nəsihət kimi şeylərlə özlərini yorsunlar?

"Burada müsəlman yoxdur! Arvad-uşaq içinə gəlmə!" və bunlar kimi yüzlərcə əhalinin mənasız sözlərinə qarşı yazıçılar "Baş üstə" deyib dərhal qayıdırdılar. Odur ki, müsəlman əhlinin bir qismi qələmdən düşüb [qeyd edilməyib] intixab [seçki] haqqından da məhrum oldular.

Bu dəfə həman müsibət yenə eynilə təkrar edilir. Smirnovun yerini Rutşteyn tutmuşdur. İş başına dəvət edilmiş şəxslərin divarlara yapışdırılmış siyahılarını dün ziyarət etdik. Bu siyahıda müsəlman məmurları o qədər azdır ki, insan bunu nəzərdən keçirdikdə özünü Azərbaycanın paytaxtı və türklərin izdihamlı bir şəhərində deyil, Rusiya şəhərlərinin birində mülahizə edir! 293 vəzifədarın yalnız 27 nəfəri müsəlmandır!

Müsəlmanlardan 4 nəfəri müdir (müdirlərin yekunu 10-dur), bir nəfəri müavini-müdir (hamısı 6-dır), iki nəfəri müfəttişdir (müfəttişlərin cüməsi 26-dır) və 20-si də yazıçıdır (yazıçıların da cümlətanı 251 nəfərdir). Hələ öylə uçastok vardır ki, oraya bir nəfər də müsəlman dəvət edilməmişdir.

Məsələn – birinci, beşinci, yeddi, səkkiz, doqquz və onuncu polis uçastoklarına, yəni şəhərin qismi-əzəminə [böyük hissəsinə] müsəlman ayağı dəyməyəcəkdir! Görünür, Bakı şəhərində savadlı müsəlmanlardan fəqət 27-si varmış! Yaxud Rutşteyn cənabı qulaqardına vurub, Smirnov kimi bildiyini yapır? Nə üçün də yapmasın? İş başına böylələri qonarsa, öz arxadaşlarını nəzərə alar, pul qazandırar, bundan dolayı müsəlmanlara nə kimi zərər və ziyanlar dəyərsə, ürəyi, vicdanı sızıldamaz!

Günah özümüzdədir. Bakı Bələdiyyə İdarəsi əzalarının beş nəfəri müsəlmandır. [Əlicabbar] Orucəliyev, Məhəmmədbəyov, Kərimov, Əliyev və [Mustafa Ağa] Şərifov. İnsafdırmı ki, bir bu qədər əzalarımız hazırda bulunarkən, təhriri-nüfus kimi mühüm bir məsələni kənardan gəlmə və məsuliyyətsiz bir şəxsə həvalə edək. Nə olardı ki, bu cənablardan birisi var-yoxu bu iki aylıq bir işi öz öhdəsinə alıb, vəzifədarları da müsəlman ziyalılarından intixab edəydi.

Müsəlman qlasnıları nə üçün buna razı qalır? “Müsavat”, “İttihad” və sair partiyalar nə işlə məşğul olurlar? Məgər intixabat məsələləri bunların proqramına daxil deyilmi? Əmri-vaqe [fakt; olmuş bitmiş iş] qarşısındamı etirazlar yapacaqlar?

Əlhasil, bizim təklifimiz budur ki, bu məsələ Rutşteyn kimi məsuliyyətsiz şəxsin əlindən alınıb, Bakı işlərinə dara [Bakı işlərini dərindən bilən] bir müsəlmana tapşırılsın. Bunun təhriki ilə də müsəlman məhəllələrinə, məsələn – iki, üç, dörd və altıncı polis uçastoklarına müdirləri, müfəttişləri və yazıçıları tamamən müsəlmandan təyin etsinlər. Qalan uçastoklara da, heç olmasa, məmurların yarısı müsəlman olmaq şərtilə təyin edilsin.

Böylə olmasa, biz müsəlmanlar qeyri-məsul şəxslərin sədaqətinə əmin ola bilməriz. Binaənileyh [ona görə], tələb ediriz ki, bu iş dayandırılsın, Bələdiyyə İdarəsinin öhdəsindən gəlmirsə, müsəlman cəmiyyətlərindən nümayəndə çağırılıb onlara həvalə edilsin. Bu gün şəhərimizə cəm olmuş tələbələrimiz də az deyil.

Haydi, çağırsınlar, işə qoşsunlar, var-yox, səkkiz günlük işdir. Müsəlman ziyalıları gəlmədilər, ərizə vermədilər deyən ağaların sözünə daha inanmayırız. Bunlar hamısı bəhanədir. Yalnız qəzetədə, o da iş işdən keçəndən sonra quru bir dəvət elanı kifayət deyildir!





İndi müraciət edən ərizəçilərə də “Daha boş yer qalmamışdır” deyə cavab verən ağalara inanılmaz.

Həştad milyon məsarifə möhtac olan Dumun intixabatını bu dərəcədə başdansovma bir üsul ilə yaparsaq, bunun nəticəsi nə olar? Yenəmi köhnə hamam, köhnə tas?

İştə, məsələnin burasını mülahizə edən şəxslərdən ikisi istefa vermişdir. 25 nəfər müsəlman qalmışdır. Bəlkə, bunlar da bu üsula razı olmayıb istefa versinlər.

İş dəyişilməzsə, hökumətin müdaxiləsi mətlubdur [tələb olunur]. Bakının əhəmiyyəti hər cəhətdən artıqdır. Gərək yeddi aylıq bir nəfər müsəlman çocuğu da qələmdən düşməsin. Bəsdir, indiyədək düşmən sözünə inanıb uşaqlarımızı, cavanlarımızı, hətta qızlarımızı qələmdən saldırdıq. Acı da səmərələrini gördük. İndi böylə işlərə laqeyd qalmaq olmaz.

*F[ərhad] A[ğazadə]*

## ÇÖRƏK BAHALIĞI

Azərbaycanda hasil olan arpa, buğda, darı məhsulatı ancaq azərbaycanlıları doyura biləcək qədərdir. Ətrafa çıxartmağa hələlik bizim artıq qəlləmiz [taxılımız] yoxdur.

Lakin Ziraət Nəzarətimiz [Əkinçilik Nazirliyimiz] zəmanəyə müvafiq bəsirətlə əkinlərimizin suvarılmasına, torpaqlarımızın qüvvətlənməsinə, əkinçilərimizə nümunə tarlaları göstərilmək vasitəsilə hankı torpaqdan nə kimi məhsullar götürülməsinə, son moda əkinçilik makinaları paylanılmasına sərfi-hümmət edərsə [çalışarsa, səy göstərərsə] (ki, edilməsi də birinci vəzifədir), o zaman əkinlərimizdən bol-bol qəllə hasil olar. Vüsətli olan torpaqlarımızın verdiyi qəllə məhsulatı azərbaycanlıları doyurduqdan sonra qonşularımıza satmağa da bizə imkan verər.

Ancaq indiki halda Azərbaycandan xaricə qəllə məhsulatı çıxarmaq, satmaq məmləkətimiz daxilində aclıq törətməkdən başqa bir nəticə verməz.

Əkinlərimizin və əkin yerlərimizin indiki halı ilə bəzi vaxtlar bir az artıq bərəkətli qəlləmiz görünsə də, onu, hər halda, hökumətimiz bəsirətli davranıb satmamalıdır.

Ehtiyat olaraq hökumət anbarlarında saxlamalıdır. Quraqlıq illərinin məmləkət daxilində törədəcəyi aclığın qabağını almaqda, böyləliklə, hər vaxt sayaq (hüşyar) olmalıdır.

Zira “İnqilab qarından qalxar” hikməti hər zaman nəzərə alınmalıdır.

İndiki halda Azərbaycandan xaricə qəllə çıxarıb satmaq o bəzzazın [arşınmalçının, parça satanın] halına bənzər ki, çoluq-çocuqlarını çılpaq qoya-qoya parçalarını qonşularına sata...

* * *

Son günlərdə Azərbaycanda qəllə azlığı və bundan dolayı da çörək bahalığı görünməyə başladı. Qəllə azlığı, çörək bahalığı azərbaycanlıları artıq dərəcədə qorxutmuş və sıxışdırmış olmalıdır ki, nəhayət, bu hal qəzetə səhifələrinə də keçdi.

Azərbaycanımızda qəllə azalmağının və çörək bahalanmağının bir neçə səbəbləri olmuşdur və olmaqdadır:

1) Azərbaycana bəzi mətalar [mallar] gətirmək şərti ilə yüzlərcə vaqon qəlləmiz hüdud xaricinə aparılmaq üçün Ərzaq və Ticarət Nəzarətimiz tərəfindən xüsusi tacirlərə icazənamələr verilmiş, böylə də, ikinci növ rəsmi olaraq bir çox qəllə məhsulatımız məmləkətimiz daxilindən çıxarılıb xaricə aparılmışdır.

2) Rəsmi olanlardan başqa, külliyyətli bir çox qəllə məhsulatımız da məsul və qeyri-məsul əllər vasitəsilə xaricəyə buraxılmışdır və bəlkə də, buraxılmaqdadır.

3) Azərbaycanın bütün sərhədlərindən hər gün 300-dən 1000 puda qədər qəllə məhsulatımız buğda, arpa, un olaraq qaçaq təriqi [yolu] ilə İrana, Ermənistana, Gürcüstana keçirilib aparılmaqdadır.

Şimdi Azərbaycandan çıxarılan bu qəllə məsələlərini bir az tədqiq və təhlil edəlim.

– Azərbaycan daxilindən bəzi şərtlərlə qəllə çıxartmaq üçün hökumətin kəndisindən başqasına, xüsusi tacirlərə icazənamələr vermək, zənnimcə, böyük xətalardandır ki, vaqe olmuşdur. Ərzaq Nəzarətimiz məmləkət daxilində nə qədər arpa, buğda olduğunu və Azərbaycan camaatına kifayət verib-verməyəcəyini ətraflıca bilməli, fəzləsi varsa, ehtiyatını da saxladıqdan sonra, artığını xaricə satmağa ancaq o zaman icazə verməlidir.

Halbuki tədqiqatımıza görə, indiki halda xaricə qəllə satmaq, bizcə, mümkün deyildir.

Məta dəyişdirmək üçün qəllədən başqa vasitələrimiz yox deyildir.

Məqamlarından sui-istifadə edən bəzi şəxslər tərəfindən Azərbaycan unları külliyyətli surətdə gizlin olaraq İrana göndərilmiş və oradan İran unu adı ilə Petrovska və oradan da tranzit təriqi ilə Gürcüstana və haraya aparılmışdır.

İştə, bu vasitələrlə milyonlara, milyardlara malikiyyət hasil olmuş, Azərbaycan füqərası da aclığa, bahalığa düçar edilmişdir.

– Bizim hüdudumuza yaxın və müstəqil olan İran tərəflərinə Nikolay zamanında da bizim tərəflərdən buğda, un aparılmaqda idi. Fəqət o zaman Rusiya və Şimali Qafqaz unları bizim hara[yı]mıza çatırdı. O səbəblə də bu un çıxarılması bizə təsir etməyirdi. Amma indi məmləkətimizə Rusiyadan və Şimali Qafqaziyadan un buraxılmayır. Biz ancaq öz Azərbaycanımızın qəlləsinə göz dikməkdəyiz.

O biri tərəfdən, Ağstafa-Qazax yolu ilə və bəzən dəmiryol ilə bir çox unlarımız, buğdalarımız da Ermənistana aparılmaqdadır, həm də qaçaq təriqi ilə...

Sonra:

Bakıdan Tiflisə tərəf hər gün üç vaqon qatarı yollanır. Bu qatarlarda çoxusu yəhudilər və rus arvadları və bir qədər də iranlı azərbaycanlı müsəlmanlar tərəfindən hər gün 300 puda qədər un Azərbaycandan çıxarılıb xaricə aparılmaqdadır.

Bu da qaçaq təriqi ilədir, həm nasıl:

Ağstafaya yaxınlaşdıqda əllərində ufaq [kiçik] on girvənkəlik un torbaları rus arvadları və yəhudilər və qeyri qaçaqçılar bütün vaqonları gəzərək torba-torba unlarını sərnişinlərə paylayırlar. Bu vasitə ilə sərhədi keçirlər, sonra yenə toplayıb, böyük torbalar düzəldib aparırlar.





İştə bu unlardır ki, hər gün 300 puda qədər deyiriz.

Əcəba, böyləcə qaçırılan unları hesab edərsək, hər ayda Azərbaycandan neçə yüz min pudlarca un çıxarılmış olar?..

Ufaq bir məmləkətdən hər gün, ya hər ay bu qədər un, qəllə məhsulatı çıxarılarsa, artıq o məmləkət daxilində aclıq, qəhətlik, bahalıq başlanmazmı?..

Bakıdan Tiflisə yollanan vaqonlarda hər gün undan başqa daha bir çox şeylər də qaçaq və açıq olaraq aparılmaqdadır. Məsələn, düyü, yağ, piy, ət, çörək, toyuq, yumurta, yaş meyvə, ikra [kürü], maxorka, ənfiyə [burunotu] və qeyrə...

Dərbənd tərəfinə gedən qatarlarda da bir çox qaçaqçılıqlar edilməkdə olduğunu eşitməkdəyiz.

Hər halda, mənafeyi-mülkü millət [ölkənin və millətin mənafeyi] naminə camaatımızı ərzaq cəhətindən təmin etmək üçün hökumətimiz və hökumət ərbabımız bu məsələlərə ətraflıca diqqət yetirməlidirlər.

Biz isə gördüklərimizi, bildiklərimizi yazmaqda davam edəcəyiz. Fəqət nəticə hasil olmalı, Azərbaycan yenə qabaqkı kimi ətrafa qibtə verəcək halına yetirilməli.

*M. B.*

**PARLAMAN ƏTRAFINDA**

"Əhrar" firqəsi əzası [üzvü] Kiçikxanov cənabları bu məqalənin dərcini təmənna etmişdir.

Məqalə idarə tərəfindən ixtisar edilmişdir.

İkinci liderimiz Abdulla bəy Əfəndizadə cənabları firqəmizdən çıxdı və bu çıxışında kəndisini ənzari-amməyə [ictimaiyyətə] haqlı göstərmək üçün bir çox səbəblər də dəlil olaraq dərmiyan etmişdir [ortaya qoymuşdur].

Həqiqəti izhar etmək [bildirmək] üçün Abdulla bəy cənablarının çıxdığına dair irad etdiyi [söylədiyi] dəlillərini bitərəfanə bir surətdə təşrih [şərh, izah] etməmiz lazım gəlir ki, zənn edərsəm, bu da bizim haqqımızdır.

Parlamana verdiyi rəsmi məlumata görə firqədən çıxmış olan Abdulla bəy "Mən nə üçün həyatına bir dərəcəyə qədər səbəb olduğum "Əhrar" fraksiyasından çıxdım" deyə yalnız fraksiyadan çıxdığına səbəblər göstərir. Filhəqiqə [doğrudan da], 8 nəfər "Əhrar" müəssislərinin [təsisçilərinin] doqquzdan biri, yəni tis'i qədər "Əhrar" təşkilinə Abdulla bəy səbəb olmuşdur.

Əsl proqram yazılanda Abdulla bəy Bakıda belə olmamışdır.

Abdulla bəy cənabları 20-25 sənədən bəri türk-eser ruhunda vücuda gətirmiş olduğu təşkilatlardan yalnız birisini də olsa lütfən söyləsəydi, bizi qayət məmnun buraxardı. Fəqət iştirak etdiyi Şəki Milli Komitəsinin axırı nə olduğunu kəndisi ilə məzkur [deyilən] komitədə bir kürsüdə oturan arxadaşlarından bu gün öyrəndik.

"İnqilabçının məhəlli-fəaliyyəti [fəaliyyət sahəsi, yeri] kəndistan, arxadaşları əkinçilər olmalıdır" deyubən doğru iddiada bulunan Abdulla bəy əfəndi uzaq qəzalardan, nahiyələrdən və kəndlərdən Bakıya gəlib "Əhrar" odasının önündə əl bağlayıb duran məzlum kəndçi və əkin-

çilərin hankısının dərdini sual etdi? Hankı əkinçinin imdadına çatdı? Yoxsa kəndisi belə mənsub olduğu qəzanın Xaçmaz pristav və yüzbaşılarının zülmündən Bakıya şikayətə gələn Vəndam və Xaçmaz camaat vəkillərinin dərdinəmi qaldı?

Abdulla bəy cənabları fraksiyadan çıxmasına siyasi bir təşkilat içərisində, yəni "Əhrar" firqəsi daxilində təcrübə görmüş, siyasi məlumat toplamış adamların olmadığını səbəb göstərir. Firqəmiz içərisində Abdulla bəydən daha çox siyasi məlumatlılarımız, təcrübə görmüş adamlarımız, təhsil görmüşlərimiz, avukatlarımız və mühəndisimiz ləhülhəmd [Allaha şükür] vardır.

Abdulla bəy cənabları fraksiyamız daxilində inzibatın da yoxluğunu iddia edir ... qismən doğrudur. Çünki "Əhrar" fraksiyasının təşəkkülündən ta Nəsib bəy kabinəsinin ibtidayi-təşəkkülünə [təşəkkülünün başlanğıcına] kimi fraksiya sədri Aslan bəy Qardaşov olmuşdur. Qardaşovun sədarəti zamanlarında hər gün iclasımız olur, Parlamanda müzakirə ediləcək məsələlər haqqında qəti bir qərar çıxarılır, hər məsələ üçün Parlamanda birər natiq təyin edilir, səsə qonulduqda əvvəldə gəldiyimiz qərar üzrə də səs verərdik. Lazımi yerlərə müraciətdə bulunulması hiss edilsə, dərhal müraciət edilirdi.

Odur ki, az bir vaxt zərfində kəndi surətimizi Azərbaycanın başqa firqə və fraksiyalarına göstərdik və "Əhrar"ın da siyasi, həm də el hakimiyyəti tərəfdarı olan bir firqə olduğunu tanıtdıq.

Demək, Aslan bəy sədarəti zamanlarında inzibatımız yolunda qərarımız qəti və müəyyən idi.

Nəsib bəy kabinəsinin təşkilindən sonra Aslan bəy Qardaşovu nəzarətə [nazirliyə] verdik, sədrimiz də Abdulla bəy oldu. Sədr olan Abdulla bəy iyunun 12-dən avqustun 15-lərinə qədər məzuniyyətdə oldu.

Məzuniyyətdən qayıtdıqdan sonra Bakıdakı kurslara və təlifat [əsər yazma, dərslik tərtib etmə] komisyonlarına, bilməm nərələrə getdiyindən, fraksiya iclaslarına gəlməz olduğundan, Parlamanda baxılacaq layihələr müzakirə edilmədi.

Maliyyə və Büdcə Komisyonunun 100 iclasının 52-sində isbati-vücud [iştirak] etmədi. Məclisi-Müəssisan Mərkəzi İntixabat [Seçki] Komisyonunun üç iclasından ancaq birində hazır oldu.

Senyoren Konventdə əksəriyyən fraksiya fikri söylənilməz oldu.

Parlamanda da rəylərimiz müxtəlif oldu.

Demək, Abdulla bəy sədarəti vaxtında fraksiya iclaslarına gəlmədiyindən müzakirə də əksər ovqat [çox vaxt] olmadı. Ona görə, təbii, inzibat da olmazdı.

"Sayımız 10 olduğu halda bəzən Parlamanda fraksiyamızı tək bircə adam təşkil edirdi" sözü təşəkkür ediləcək bir həqiqətdir.

Fəqət Qarabağ məsələsi kimi mühüm məsələlərin müzakirəsi zamanlarında fraksiyanı tək bircə mən təşkil edirdim. O zaman Abdulla bəy cənabları da sədr olduğu halda məzuniyyət namilə [adıyla] Şəki kursunda dərs deməsini də unutmamalıdır!





Abdulla bəy cənabları Mərkəzi Komitənin də ədəmi-fəaliyyətindən [fəaliyyətsizliyindən] bəhs açaraq, mahallarda açılmış şöbələrdən gələn şikayətlər eşidilmədi... bircə şöbəyə, yaxud bircə adama düsturüləməl [təlimatnamə], ya bir başqa kağız göndərilmədi..." deyir.

Mən də oktyabr 1-nə qədər Mərkəzi Komitədə əza olmadığımdan bunun cavabını da sabiq Mərkəzi Komitə əzalarına, bilxassə komitə divani-rəyasətinə həvalə edirəm.

Abdulla bəy cənabları məqaləsinin axırında "demaqoqluq" edib, "Axırı iş müncər oldu [gəlib çatdı] intriqaya... firqəmizə, qeyd edilən ziyalılarımıza kəc baxmağa başladıq..." – deyir.

Firqəmiz yaxud fraksiya daxilində nə kimi bir intriqa olduğunu, hankı ziyalıya kəc baxıldığını və kimlərin bu intriqa və bu kəc baxmaqda iştirak etdiyini lütfən söylərsə, bir çox həqayiq [həqiqətlər] kəşf ediləcəyindən, bizi mədyuni-şükran [təşəkkür etməyə borclu] etmiş olar.

Əlhasil, fraksiya əzaları dəfəatla sədri fəaliyyətə dəvət etdi.

"Əsəbiyəm, xəstəyəm, bacarmayıram" – başqa bir cavab alammadı.

Axirüləmr [nəhayət], Abdulla bəy cənablarının (Azərbaycan daxilində bihəqqin [layiqli] müəllim olduğunu etirafla) siyasi bir təşkilat başında durmağa qətiyyən ləyaqəti olmadığını yəqin edərək, oktyabrın 31-də sabah saat 10-da Abdulla bəy fraksiya sədrliyindən ixrac edilib, yerinə Aslan bəy Qardaşov cənabları yenidən sədr təyin edildi.

Vəssalam.

*Məbus [millət vəkili] Kiçikxanov*

## BAKI XƏBƏRLƏRİ

### Dövləti sənaye kurslarında

Təşrini-saninin 17-dən etibarən dövləti sənaye kurslarında dərslərə şüru edilmişdir [başlanmışdır]. Dərslərə axşam saat 5-dən başlanır.

### Qaçqınlar Qarsda

Qars mahalından qaçqınların fəna və müdhiş bir halda olduqları xüsusda böylə məlumat verirlər:

Qars mahalında xəstə, tam mənası ilə ac və çılpaq, yer və məskənsiz olan bir çox İrəvan quberniyası müsəlman qaçqınları mövcuddur. Aclığın şiddətindən bunların arasında bir çox xəstəliklər, ələlxüsus yatalaq xəstəliyi intişar etməkdədir [yayılmaqdadır]. Qış hülulu [qışın gəlməsi] münasibətilə soyuqlar düşdükdə bu fəlakzədələr ölümə məhkum olaraq əcəl çəngalından [caynağından] xilas olası deyildirlər. Binaenaleyh [ona görə], öz vaxtında bunlara müavinət etməmək minlərlə müsəlmanların qırılmağına bais olmaq deməkdir.

### Hacıqabulda

Təşrini-saninin 9-da, saat 4-də Hacıqabul istasyonunda Ağahəsən Mirzəzadənin sədarəti və Cavanşir İsazadənin katibliyi ilə Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Hacıqabul şöbəsi iclası vüqu bulub, işbu məsələlər qət edilmişlərdir:

1) Dəmiryolunun baş idarəsi tərəfindən kooperativ dükanında bişən çörək yaxşı bişirilmədiyindən, firqə təşəbbüsat etməlidir;

2) İstasyonda bir sənət məktəbi açılmasına firqə çalışmalıdır;

3) Mənzilsiz fəhlələrə mənzil və yatacaq verilməsi haqqında firqə lazımi binagüzarlıq etməlidir [təşəbbüs göstərməlidir];

4) Depo hamamına neftekaçkadan buxar buraxılmalıdır;

5) Fəhlələrə əşyanı ucuz qiymətə satmaq üçün bufetçilərə hökumət tərəfindən məzənnə təyin edilməlidir;

6) Ucar istasyonunda qış yanacağı olması haqqında firqə lazımi təşəbbüsatda bulunmalıdır.

**Elektrik cəmiyyəti və Bələdiyyə İdarəsi**

Bələdiyyə İdarəsi ilə "Elektriçiskaya sila" cəmiyyəti beynində [arasında] əqd edilmiş [bağlanmış] müqavilənamə mövcibincə, cəmiyyət kəndi fəaliyyəti haqqında və gündəlik qüvvətlərin diaqrammalarını Bələdiyyə İdarəsinə təqdim etməlidir.

Cəmiyyət dün şəhəri işıqlandıran Bibiheybət mövqifi [stansiyası] fəaliyyəti və diaqrammalarını Bələdiyyə İdarəsinə təqdim etmişdir.

* * *

Ordu İstehkam Müfəttişliyi Bələdiyyə İdarəsinə müraciətlə məlum etmişdir ki, əsgərlər olan qışlaların [kazarmaların] bacaları qış mövsümü yetişdiyi üçün təmizlənməlidir. Şəhərdə mütəxəssis bulunmadığından Bələdiyyə İdarəsi kəndi xidmətçilərindən bir dəstə fəhlə göndərməsini rica etmişdir.

**Ev Sahibləri İttifaqının nümayəndəsi**

Parlamanın müzakirəsinə idxal olunmuş ev-dükan kirayəsi xüsusunda qanun layihəsinə baxılmaq komisyonunda iştirak etmək üçün bir nəfər nümayəndə də Ev Sahibləri İttifaqından dəvət olunduğu üçün İttifaq tərəfindən A. S. Suxarjevski intixab edilmişdir [seçilmişdir].

## BİRJADA

Kerenski minlik 800-1000 manata qədər, 250-lik kəndi qiymətindən 15 faiz və xırda 40 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1600 manata qədər, yüzlüyü 200-350 manata qədər və xırdası 80-100 faizə qədərdir.

Türkiyə kağız lirəsi 200 manat və Zaqafqaz bonu min manata 10 manat fəzlədir.

Türkiyə altun lirəsi 960 manat, imperial 800 manat, altun onluq 1150 manat və Avstriya altunu 2200 manatdır.

Gümüş manat 85 manat və xırda gümüş para 35 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 5 qrana olmuşdur.

Susinin topu 1025 manata gedir.

## ƏHALİYƏ ÇÖRƏK PAYLANAN YERLƏR

Ticarət və Ərzaq Nəzarəti Mərkəzi İstehlak[çı]lar İttifaqı "Kooperasiya"ya buraxdığı ətmək (çörək) aşağıda göstərilən məhəllərdə [yerlərdə] bu gündən etibarən satılmaqdadır:





1-ci polis dairəsində, "Samopomoş" dükanında, nömrə 4, Bayılda.

2-ci polis dairəsində, "Morskoy" kooperativ dükanında, nömrə 2.

"Qızıl-gümüş qənaət" dükanında, Sadovı küçədə, "Səadət" qarşısında.

"Şəhər bələdiyyə qulluqçuları" dükanında, Nikolayevski küçədə.

3-cü polis dairəsində, "Qafqaz rus demokrat" dükanında, Pasajda.

"Samopomoş" dükanında, Pasajda.

"Qızıl-gümüş qənaət" dükanında, nömrə 4.

"Mürüvvət" dükanında.

4-cü polis dairəsində, "Dağlılar İttifaqı" Sisiyanovski və Aziatski küçələrin küncündə.

"Vətəndaşlar" dükanında, 2-ci paralel küçədə.

Novxanı polis dairəsində, 4-cü paralelni küçədə

"İnsan" dükanında, 1-ci paralelni küçədə.

"Morskoy" kooperativ, Bolşoy Morskoy küçədə.

"Kooperativni Soyuz", Kolyubakinski küçə.

6-cı polis dairəsində, "Səyan" dükanında, 1-ci paralelni küçə.

"Kooperativni Soyuz" dükanında, Krasnovodski küçədə.

7-ci polis dairəsində, "Samopomoş" dükanında, Telefonnı.

8-ci polis dairəsində, "Kooperativni Soyuz" dükanında, 1-ci Qanlıtəpə.

9-cu polis dairəsində, "Samopomoş" dükanında, 6-cı Zavağzalnıda.

"Mayak" dükanında, Balaxanada.

## FİRQƏ VƏ CƏMİYYƏTLƏR

### "Müsavat"da

**Nardaran məktəbi**

Nardaranda vaqe olan kənd məktəbi dağınıq halda bulunduğundan, Nardaran "Müsavat" şöbəsi bu barədə təşəbbüsatda bulunmağı və bu qayda ilə dərs oxutmaq mümkün olmayacağını Mərkəzi Bakı Komitəsinə xəbər verir. Komitə bu barədə Bakı nahiyəsinin xalq məktəbləri müfəttişinə müraciət etmişdir.

**Fəhlələr və aclıq**

"Müsavat" firqəsinin Balaxana Mərkəzi Mədənlər şöbəsi tərəfindən Məşhədi Həmid Paşazadə və Məzahir Hüseynzadə Ticarət və Sənaət naziri ilə görüşməyə, aclıq və bahalıq barəsində danışmağa intixab edilmişlərdir [seçilmişlər].

**Dəmiryolu məmurlarından şikayət**

Dəmiryolunda məmurların qanunsuz hərəkətləri haqqında nazir əfəndi ilə danışmaq üçün "Müsavat" firqəsinin Mərkəzi Mədənlər şöbəsi tərəfindən yenə Məşhədi Həmid və Məzahir intixab edilmişlər.

**Mətbuat və Nəşriyyat şöbəsi**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı Komitəsi indində [nəzdində] olan xüsusi Mətbuat və Nəşriyyat komisyonu rəisliyinə Seyid Hüseyn Sadiq, müavin – Məhəmmədzadə Mirzəbala, katib – Əbdülvahab Məhəmmədzadə intixab edilmişlərdir. Komisyon öz fəaliyyəti haqqında bir düsturüləməl

[nizamnamə] tərtib verib Komitəyə təqdim etmiş və bu günlərdə fəaliyyətə başlayacaqdır. İlk əvvəl firqə qəzetəsi nəşr olunacaqdır.

**Kənd məktəbləri**

Türkan və Əhmədli kəndlərinin məktəb büdcələrini firqə Maarif Nəzarətinə xəbər vermişdi. Bu barədə xalq məktəbləri müfəttişi ilə şəxsən danışmaq üçün müfəttişin müraciəti üzərinə Bakı Komitəsi Məhəmmədzadə Mirzəbalanı intixab etmişdir.

**Bahalıq haqqında**

Get-gedə artmada olan bahalığın önünü almaq haqqında Bakı Komitəsinin çıxarmış olduğu qərarları bizzat [şəxsən] hökumətə bildirmək üçün "Müsavat" tərəfindən Yusif Ziya əfəndi ilə Yusif İbrahimli intixab olunmuşdur. Nümayəndələr Məsai [Əmək] və Ticarət Nəzarətləri ilə və hökumət rəisi Nəsib bəy əfəndi ilə görüşmüşlərdir.

**Müsavatçı tələbə və mütəallimlər iclası**

Müsavatçı tələbə və mütəallimlər [şagirdlər] qurultay ilə münasibəti olan bir çox mühüm məsələləri həll edib qurtarmaq üçün təşrini-saninin 18-də növbəti ümumi iclas dəvət edirlər.

**Cəmiyyəti-Xeyriyyədə**

**Qızlığa götürmüşdür**

Yetimlər yurdundan Fərişə nam [adlı] bir yetim qızı Novruz Məşhədi Dadaş oğlu övladlığa götürmüşdür.

**Qaçqınlara himayət**

Qaçqınlardan Dadaş Tağı oğlunu Məşhədi Ağakərim Nuriyev və Fatma Məhəmməd qızını oğlu Əbdürrəzzaq Qəhrəman oğlu ilə bərabər Kərbəlayı Nəcəf Məhəmmədov evlərində saxlamaq üçün Cəmiyyət-Xeyriyyədən götürmüşlərdir.

**3 nəfər yetim**

Bakı şəhəri yetimlərindən Qulamhüseyn, Əlihüseyn və Səkinə Molla İbrahim uşaqlarını Cəmiyyəti-Xeyriyyə Yetimlər yurduna qəbul etmişdir.

**İclas**

Yekşənbə [bazar] günü təşrini-saninin 16-da axşam saat 7-də Bakı Müsəlman Cəmiyyət-Xeyriyyəsi binasında cəmiyyətin qaçqınlara müavinət edici şöbəsi iclası təyin edilmişdi. Sədr Qasım Qasımov iclası açıb məsaili-yövmiyyəni pişnihad etdi [gündəlikdəki məsələləri təqdim etdi]:

1) Cəbə [ianə qutusu] ianəsi; 2) Çay məclisi və: 3) Qaçqınların Erməniköyünə [Ermənikəndə] köçürülməsi.

1) Cəbə vasitəsilə qaçqınlara para toplamaq üçün müzakirə olduqda qət olunmuş ki, pəncşənbə [cümə axşamı] günü təşrini-saninin 27-də bir günlük olaraq cəbə ianəsi toplanılsın və bu işə mübaşir olmaq [məşğul olmaq] üçün Hacı Qasımovun sədarəti ilə Yusif Mehdiyev, Həmid ağa Cavanşir, xanım Topçubaşova, doktor Ordubadskidən və Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"dan və "Hümmət" firqəsindən birər nümayəndədən ibarət bir komisyon təşkil verildi.





2) Bakı Obşenstvennı Sobraniya klubunda ianə toplamaq üçün bir çay məclisi təşkil vermək məsələsi əksəriyyətlə təxirə salındı.

3) Qaçqınların Erməniköyünə köçürülmək məsələsi də müzakirə olunub, iclas tərəfindən təsvib edildiyindən [bəyənildiyindən], qaçqınları Erməniköyünə köçürmək üçün Bahadur bəy Məğrubovun sədarəti ilə Ağaməhəmməd İbrahimzadə, Mirzə Məhəmməd, doktor [Mustafa bəy] Şərifov və doktor Muxtar Əliyevdən ibarət bir komisyon təşkil verilməklə məclisə xitam verilmişdir.

**Fövqəladə iclas**

Seşənbə [çərşənbə axşamı] günü təşrini-saninin 18-də axşam saat 6-da iranlıların maarif cəmiyyəti "Tərəqqi"nin fövqəladə idarə iclası təyin edilmişdir. Müzakirə ediləcək məsələ idarənin nəşriyyat şöbəsi xüsusundadır.

**AZƏRBAYCANDA**

**Qazax mahalından**

Bu axır zamanda Qazax mahalına İrəvan quberniyasından qaçqınlar gəlməkdədirlər. Qaçqınların halı olduqca pəjmürdədir. Soyuqlar düşmüşdür, bir tərəfdən də mühacirlərin yeyəcəyi, yatacağı olmadığından aralarında ölənlər çoxdur. Xəstəlik hökmranlıq etməkdədir. Təbib və dərman yoxluğundan xəstələr müalicəsiz, ölümə məhkum olurlar. Mühacirlər Qazax mahalının hər tərəfinə dağılmışdır. Fəqət onların çoxu Şıxlı, Dəlilər, Muğanlı, Sarılar, Ağalıq və Kəsəmən köylərindədirlər.

Hökumət tərəfindən onlara qətiyyən bir yardım olunmayır.

Qaçqınların əksəri dəmiryol təriqi [yolu] ilə gəlirlər. Ağstafa istasyonunda aclarından və soyuqdan ölənlərə təsadüf etdik. İstasyon məmurlarının bəyanatından, orada İrəvan mühacirlərindən daima ölənlər və xəstə yatanlar olduğunu da anladıq. Bunlara hökumət tərəfindən yardım olunmayır. Yardım olunursa, təsadüfən camaat tərəfindən azacıq olur.

Mühafizə müdiri (naçalnik oxranı) Səməd bəy Muradov cənablarının mühacirlərimizə daima hər dürlü yardımda olduğunu gördük və mühacirlərdən duyduq. İrəvan Quberniyası Həmtorpaqlıları tərəfindən zati-alilərinə təşəkkürümüzü izhar etməklə bərabər, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] də diqqətini buraya cəlb etmək istəyiriz. Tainki Qazax mahalında ələlumum, Ağstafa və Poylu istasyonlarında ələlxüsus mühacirlər unudulmasınlar və bu barədə lazımi tədbirlər görülsün.

*Əli Səbri [Qasımov]*

Azərbaycan Dövləti Teatro Heyəti Müdiriyyətinə türkcə və rusca mükəmməl savadı olan bir nəfər mühasibəçi və bir nəfər katib lazımdır.

Həmin savada malik mütəxəssislər (Dumski ploşadda Haşımovun 10 nömrəli mülkündə) Müdiriyyətin kontorunda Zülfüqar bəy Hacıbəyliyə müraciət etməlidirlər.

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Doktor C. N. Ləmbəranski**

Daxiliyyə və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur gündüzlər 10-dan 12-yədək; axşamlar 5-dən 7-yədək.

Ünvan: Birjavaya küçə 8, telefon 57-30.

*14040*

**Professor Buyneviçin müsəkkər [sakitləşdirici] kabinetinin sabiq assistenti Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Doktor V. K. Finkelşteyn**

Qulaq, burun, boğaz və cərrahiyyə naxoşluqlarına müalicə edir.

Qəbul olunur səhərlər saat 8-dən 9-adək; axşamlar saat 5-dən 7-yədək.

Telefon 24-70.

Vorontsovski küçə, ev nömrə 4, Parapetin küncündə.

*14052*





**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Doktor Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa.

Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

**Yük avtomobili**

İlə şəhərdə, körpü və mədənlərdə hər cür yük və mebellərin nəqliyyatı qəbul olunur.

Ünvan: Merkuryevski küçə, ev nömrəsi 1, kontora Bəradərani-Şahbazov, telefon 29-54.

*14050*

***Müdir: Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Elan**

səh. 371. "Büro perevozki": Azərbaycan Dəmiryolu İdarəsinin, Yükdaşımaların Tənzimlənməsi Bürosu nəzərdə tutulur.

**Qismi-rəsmi**

səh. 373. "Birjevoy": Bakıda, indiki Üzeyir bəy Hacıbəyli küçəsi.

"Krasnovodski": Bakıda indiki Səməd Vurğun küçəsi.

**Əhvali-ümumiyyə**

səh. 375. "Hohensoler və Romanov xanədanı": Hohensollern – II Vilhelmin də mənsub olduğu Prussiya kralları və Alman kayzerləri sülaləsi; Romanovlar – 1613-1917-ci illərdə Rusiyanı idarə edən hökmdar sülaləsi.

"Curson": bu familiya qəzetdə latın hərfləriylə yığılmışdır.

**Qəzetələrdən**

səh. 379. "Heydərov": bu soyadı qəzetdə "Razdarov" kimi təhrif edilmişdir.

**Türkiyədə**

səh. 381. "Mustafa Kamal paşanın şayani-diqqət bir raporu": Bu raportu Mustafa Kamal paşa Yeddinci ordu komandanı olarkən, Baş Komandan vəkili Ənvər paşaya göndərmişdir.

**Nəzarətlərdə**

səh. 384. "Sarı cəzirəsi" (yaxud Sara adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**Parlaman ətrafında**

səh. 389. “eser”: sosial-revolyutsioner, yəni sosialist-inqilabçı.

“iddia edir … qismən doğrudur”: nöqtələrin yerində bir söz silinmiş, oxunmur.

səh. 390. “Senyoren Konvent”: Qanunverici orqanda, siyasi partilərin liderlərindən ibarət Şura.

**Yük avtomobili**

səh. 397. “Merkuryevski”: Bakıda, indiki Zərifə Əliyeva küçəsi.





**Çərşənbə, 19 noyabr 1919-cu il, nömrə 325**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 25 səfərül-müzəffər sənə 1338. 19 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**ELAN**

Azərbaycan Dəmiryolunun İdarəsi bununla elan edir ki, “Büro perevozki”-nin qərardadı mövcibincə [qərardadına əsasən], hər gün 3 nömrəli qatara balıq və balıq məkulatından [məhsullarından] ötrü bir vaqon bağlanacaq bu vaqona mallar Bakı şəhər istasyonunda 150 puda qədər və bu miqdarda da Bakı birinci istasyonunda qəbul olunur.

*T-345*

**SİRK “MODERN”**

**Mübarizənin son günləri**

Çaharşənbə günü noyabrın 19-nda 1919-ncu ildə Gənc Əlinin benefisidir. Bu gün Gənc Əli hind fakirlərinin yoqasını icra edəcək. O, ayaqyalın sınıq şüşələr üstündə durub ağır şeylər qaldıracaq. Bu gün Gənc Əli öz qeyri-təbii hallarını göstərəcək. Gənc Əliyə bərabər bir kəs yoxdur. Gənc Əli böyük güc sahibidir. Gənc Əli təbiətin möcüzatındandır.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Yermak – Naməlum; 2-nci: Gənc Əli – Kalişeviç; 3-ncü: Qara Maska – Raqenbaum.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Qara Maskanın benefisi hazırlanır.

*14062*

**ELAN**

Bakı Neftepromışlenniklər İctimasının [Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının] məktəblərində **türk lisanı üçün** müəllimlər lazımdır.

*14063*

**QİSMİ-RƏSMİ**

**[RƏSMİ HİSSƏ]**

**Bakı Müstəhkəm Dairəsinin hərbi general-qubernatorunun məcburi qərardadı**

*15 təşrini-sani 1919, Bakı*

Otaq böhranı, qarşımızdakı ərzaq müşkülatı və əlelümum həyatın getgedə bahalaşması və bu zəmində artmaqda olan ehtikarçılığın önünü almaq